# ƏZİZ NESİNİN "MARKO PAŞA" FƏALİYYƏTİ

**Maya Həsənli**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Azərbaycan
E-mail: mayaaxundova93@gmail.com

*https://doi.org/10.59849/iscapltmt.2024.49*

**Xülasə.** Məqalədə görkəmli türk satira ustası Əziz Nesinin yaradıcılığına aparıcı yön vermiş olan "Marko paşa" qəzetinin fəaliyyətə başlamasını şərtləndirən səbəblər araşdırılır. "Marko paşa" qəzetinin türk satirik nəsrinin inkişafında, eləcə də Əziz Nesin satirik qələminin formalaşmasında rolundan bəhs olunur.
**Açar sözlər:** Əziz Nesin, türk satirası, "Marko Paşa", bədii gülüş, karikatura

## Aziz Nesin's "Marco Pasha" activities

**Maya Hasanli**
Institute of Literature named after Nizami Ganjavi of ANAS, Azerbaijan
E-mail: mayaaxundova93@gmail.com

**Abstract.** This article explores the factors that led to the establishment of the newspaper *Macko Pasha*, which played a pivotal role in shaping the literary career of the prominent Turkish satirist Aziz Nesin. It examines the newspaper's contribution to the development of Turkish satirical prose and highlights its significance in the formation of Aziz Nesin's satirical voice.
**Keywords:** Aziz Nesin, Turkish satire, "Marco Pasha", artistic laughter, caricature

Bədii gülüş tarixən xalq ədəbiyyatından başlamış, orta əsrlərdə divan ədəbiyyatı ilə paralel inkişaf edərək XIX əsrdə ayrıca ədəbi növə çevriləcək qədər funksionallaşmışdır. Şifahi ədəbiyyatda lətifələr, xalq tamaşaları, qismən yaxud epizodik olaraq nağıllar və dastanlar, yazılı ədəbiyyatda isə orta əsrlərin klassik divan poeziyasında həcviyyələr, XIX əsrin sonlarına doğru isə yeni yaranan mətbuat bədii gülüşün ifşaedici funksiyasını əks etdirmişdir. Osmanlıda 1839-cu ildə Tənzimat fərmanının elanı ilə başlanan yenilənmə hərəkatı ədəbiyyatda yeni janrlarla yanaşı, ictimai tipli satiranın da yaranmasına rəvac vermiş oldu. Tənzimat dövrü satirasından bəhs edərkən Aydın Abıyev haqlı olaraq qeyd edir ki: "Tənzimat dövründə yaranan satira orta əsr satirasından - həcvçilikdən yeni ruhu, yeni məzmunu, yeni forması ilə fərqlənirdi. Bu dövrün satirası insanın taleyi, düşüncələri ilə məşğul olur, zamanın nəbzini tuta bilir, mövcud məqsədlərə xidmət etməyə, həyatın tələbatına cavab verməyə çalışırdı... [1, s.49].

XIX əsrdə əvvəlcə "Təqvimi-vəqai" (1831), "Cərideyi-həvadis"(1840), "Tərcümani-əhval"(1860), "Təsviri-əfkar"(1862), "Müxbir" (1866) kimi qəzetlərin nəşrə başlaması türk publisistik yazı üslubunu formalaşdırdı. Bunun zəminində 1870-ci ildə Osmanlıda ilk türkcə satirik mətbu yayım olan "Diogen" qəzetinin Teodor Kasap tərəfindən yaradılması ilə artıq satirik publisistikanın əsası qoyulmuş oldu. Bu illərdə satirik yazılı ədəbiyyat məhz mətbuatda yayımlanan yazılardan ibarət olur və aydın məsələdir ki, əsas tənqid hədəflərini istibdad rejimi və dövrün iqtisadi-sosial qayğıları təşkil edir. Daha sonralar yenə də Teodor Kasapın təsis etdiyi "Çınqıraqlı tatar", "Xəyal", daha sonra "Lətifə", "Şəfəq", "Qəhqəhə", "Gəvəzə", "Məddah", "Çaylaq" kimi satirik mətbu orqanlar fəaliyyət göstərmişlər.

Cümhuriyyət dövründə isə Burxan Cahid Morkayanın yayımlamağa başladığı "Koroğlu", Yusif Ziya Ortacın "Ağbaba" (uzun ömürlü kərkəz quşu türkcə belə adlanır, eyni zamanda uzun ömür sürmüş ağsaqqal adam anlamında), Sədat Simavinin "Qaragöz", "Karikatura", "Yeddi gün" kimi

qəzet və jurnalları satirik bədii ədəbiyyatın təmsilçilərinin yaranması və satiranın inkişafı üçün əlverişli müstəvilər olur.

1946-cı ildə isə ilk siyasi satirik qəzet olan "Marko paşa"nın zamanın zərurətindən yaradılması isə yeni tipli satirik nəsri, xüsusilə satirik hekayəni və dünyada satirik gülüş ustası kimi tanınan Əziz Nesinin (1915-1995) yaradıcılığını bu yöndə inkişaf etdirməyə zəmin yaratdı.

Dünya ədəbiyyatı tarixində ən böyük satirik yazıçılardan olan Əziz Nesin düşüncə baxımından sosialist fikirli ziyalı olmuşdur. Bu fikirlərin onda yaranıb formalaşmasını isə həyat yolu ilə əlaqələndirmişdir. Hələ Çəngəlköy hərbi liseyinin son sinfində olarkən artıq Əziz Nesində sosialist düşüncələrin ilk rüşeymləri hiss olunurdu. Ailəsinin maddi vəziyyəti çox aşağı olduğu üçün yataqxana tipli pulsuz məktəb olan Darüşşəfəqədə təhsil ala bilməsi, daha sonra Çəngəlköy hərbi liseyi, Kuleli Hərbi liseyi kimi dövlətdən maliyyələşən təhsil ocaqlarında yetişmiş olması onda hökumətin himayəsinə sonsuz inam yaratmışdı. Xüsusən də Darüşşəfəqədə təhsil alan şagirdlərə tez-tez dövlət himayəsinə olmalarının xatırladılması və təbliği Əziz Nesində hələ uşaq yaşlarından hökumətə olan minnətdarlıq, borcluluq hissi formalaşdırmışdı. Təsadüfən oxuyub məlumatlandığı Yol mükəlləfiyyəti qanununa görə kəndilər yol çəkilişində iştirak etməli, işləməyənlər isə vergi ödəməli idilər. Kasıb və zəhmətkeş kəndlilərin öz övladlarını oxuda bilməyib, yaxşı geyindirə bilməyib dövlətə vergi ödəmələri Əziz Nesinin sosialist düşüncələrinin oyanmasına təsir etmiş əsas məqamdır.

1944-cü ildə hərbidən ayrıldıqdan sonra peşəkar yazıçı, eyni zamanda qəzet müxbiri kimi fəailiyyətə başlayan Əziz Nesin əvvəlcə Sədat Simavinin sahibi və baş redaktoru olduğu həftəlik "Yeddi gün" və "Qaragöz" jurnalları ilə əməkdaşlıq etmiş, 1945-ci ildə isə Zəkəriyya Sertel və xanımı Səbiha Sertelin birlikdə idarə etdikləri "Dan" qəzetində fəaliyyət göstərmişdir. Bu mətbu orqanlarda Əziz Nesin redaktə işləri görür, müsahibələr hazırlayır, eyni zamanda lətifə, felyeton yazaraq yavaş-yavaş satirik yazıçıya çevrilmiş olur. "Satirik yazıçı olmaq üçün xüsusi bir səy göstərməmişdim; öz-özündən satirik yazıçı olaraq tanınmışdım" [8, s.7].

"Dan" qəzeti kommunizmi, sovet ideologiyasını təbliğ etməklə dövlətə qarşı iğtişaş törətməkdə ittiham edən bir qrup tələbə tərəfindən 4 dekabr 1945-ci ildə basqına məruz qalmış, Türkiyə tarixinə "Dan olayları" adı ilə keçərək xeyli sayda insanın xəsarət alması ilə nəticələnmişdi. Bu hadisədən sonra "Dan"la yanaşı bir neçə mətbu orqan da fəaliyyətlərini dayandırmışdı. "Kommunist fikirləri və yazıları ilə gündəmdə olan və hərbi rejim tərəfindən nəzarətdə saxlanılan Zəkəriya Sərtəlin baş redaktorluğu ilə çıxan bu qəzet Əziz Nesinin siyasi sferaya daxil olmasına, dövrün iqtidar hakimiyyəti ilə bağlı fikirlərini yazmağa başlamasına qapı açmış olur" [4, s.191].

Əziz Nesin bədii gülüşü, xüsusən də ifşaedici təsir gücünə malik satiranı "məğlub insanların savaş silahı" [11, s.190] adlandırırdı. Demək olar ki, bütün yaradıcılığı sosialist düşüncələrinin üstündə qurulmasına baxmayaraq, Əziz Nesin siyasi partiya üzvü olmamışdır. Yalnızca 1946-cı ildə Əsəd Adil Müstəcəbinin qurduğu Türkiyə Sosialist Partiyasına üzv olmuş, 2 ay sonra üzvlükdən çıxmışdır. Eyni zamanda partiyanın mətbu orqanı olan "Gerçək" qəzetinin qısa müddətli fəaliyyəti dövründə orada çalışmışdır. 1946-cı "Gerçək" qəzetinin yayımı da hərbi rejim tərəfindən dayandırılır. (İkinci Dünya müharibəsi başladığı zaman Türkiyədə hərbi rejim elan edilmişdi). Heç yerdən əlavə gəliri olmayan Əziz Nesin işsiz qalmış, ailəsini dolandırmaq üçün başqa yollar axtarmağa çalışmışdır. Bu mərhələdən sonra Əziz Nesin öz qəzetini təsis etmək, qəzet çapı işi ilə məşğul olmaq istəyir ki, fikirlərini, düşüncələrini xalqa rahat çatdıra bilsin. "Cümə ertəsi" adlı həftəlik jurnal çapına başlasa da cəmi 8 sayını nəşr etdirə bilmişdi. Ədib işsiz qaldığı və sıxıntılı olan bu dövrü sonralar yazılarında "qorxunc günlərim" kimi xatırlamışdır [10, s.68].

Nəhayət, 1946-cı ilin 25 noyabrında Səbahəddin Əlinin maliyyə yardımı ilə "Marko paşa" adlı həftəlik satirik jurnal çıxartmağa nail olur. Jurnalın sahibi Səbahəddin Əli, digər bütün işlərindən məsul Əziz Nesin, karikatüristi isə Mustafa Uykusuz (Mim Uykusuz) olur. Qəzetin adı "Gerçək" qəzetində Əziz Nesinin çap etdirdiyi "Marko paşaya açıq məktub" adlı şikayət xarakterli satirik

yazısından götürülmüşdü. Marko paşa (Marko Pistipios, 1824-1888) tarixi şəxsiyyət olmuş, Osmanlı dövründə Sultan Əbdüləzizin zamanında sarayın baş həkimi vəzifəsində çalışmışdır. Eyni zamanda Məclisi-əyan üzvü olduğundan sarayda qəbul etdiyi insanların şikayətlərini dinləmişdir. Marko paşa Türk Qızılay Cəmiyyətinin qurucularından və Osmanlıda dövlətinin ilk ombudsmanı olmuşdur [2, s.83]. Marko paşa istər xəstə müayinəsi, istərsə də xalqın şikayətini dinlədiyi zamanlar səbrlə dinləyib sonra anlamadığını bildirən reaksiyaları ilə məşhurluq qazanmışdır. Xəstə məcbur qalıb problemini təkrar-təkrar deməli olsa da, Marko paşa hər dəfə eyni "anladım, amma nə?" reaksiyasını verirmiş. Ona görə də xalq arasında dərdinə çarə edəcək adam yoxdur anlamında "sən dərdini Marko paşaya de" ifadəsi yaranır. Hətta Neyzən Tevfiq (1879-1953) "Həvalə" adlı həcvində bu ifadəyə təlmih etmişdir.

*Tədqiq etdim hər məsləyi, hər dini*
*Tapammadım qəmsiz tək bir fərdini*
*Anlatmaq üçün Siyonistə dərdimi*
*Marko paşa ilə Tura buraxdım.* [6, s. 241]

Əziz Nesin də məhz bu məsəldən ilhamlanaraq dövrünün problemləri ilə bağlı ilk dəfə 1945-ci ildə "Dan" qəzetinin 29 sentyabr sayında "Zarafatlar" başlıqlı sütunda Marko paşanın bu xüsusiyyəti ilə tanındığına işarə edərək dövlət məmurlarını ədalətli xidmətə çağırır: "dərd tökməklə, dərd dinləməklə, dərdinə yanmaqla dərdə çarə tapılmaz. İşi kökündən həll etmək, rasional tədbirlər tapmaq lazımdır" [7, s.63]. İkinci dəfə isə Marko paşanın adını "Gerçək" qəzetində 25 iyul 1946-cı il 19-cu sayında, 2-ci səhifədə "Marko paşaya məktub" başlıqlı yazısında çəkir və artıq daha kəskin tənqidi, satirik üslubu hiss olunur [5].

Məlumdur ki, 1945-ci ildə İkinci Dünya Müharibəsi sona çatdıqdan sonra Türkiyə də dünya iqtisadi böhranının yaşandığı ölkələrdən olur. Birinci Dünya Müharibəsinin, Qurtuluş Savaşının ağır sınaqlarından çıxmış yeni Cümhuriyyət təkrar çətin günlər yaşamalı olur. Belə bir dövrdə Trumen doktrinasının qəbulu Əziz Nesini ödəyə bilməyəcəyi bir mənəvi borc duyduğu xalqını oyatmağa, qələmini işə salmağa vadar edir. Əziz Nesin qeyd edirdi ki, "mənim qələmimin yönünü həyatım cızmışdı". Bu yol isə lağlağı, istehza və rişxəndlə yoğrulmuş satira yolu idi. "İkinci Dünya Savaşı sona çatdıqda satirik mətbuatda yeni bir cərəyanın başladığını görürük...."Markopaşa" o dövrə qədər görülməmiş bir nəşr sayına çatır. Sabotajlar başlayır, Səbahəddin Əli ilə Əziz Nesin həbs olunur. Jurnal bağlanılır. Amma satiraya artıq yeni bir istiqamət verilmişdi.." [12, s.225]. "Marko paşa" qəzetinin əsas amalı və qayəsi də siyasi yöndə dövrün hakim qüvvələri ilə savaşıb onları ədalətə çağırmaq, sosial yöndə isə xalqın gözünü açmaq, cəmiyyətdəki qüsurları islah etməyə səsləmək idi. Təsadüfi deyil ki, qəzetin devizi olaraq da bu fikirləri qeyd edirdilər: "Məqsədimiz sadəcə gülmək üçün gülmək deyil. Gülmək, düşünmək və faydalı olmaqdır" [9, s.202].

Qəzetin yaradılması ilə bağlı hazırlıq işləri zamanı Səbahəddin Əli ilə Əziz Nesin dərc olunacaq yazıların heç birində müəllif adı qeyd edilməyəcəyi ilə bağlı razılaşmışdılar. Bu baxımdan "Marko paşa" siyasi satirik qəzet olduğu və hərbi vəziyyət hələ də davam etdiyi üçün Səbahəddin Əli böyük bir risk etmiş olurdu. Çünki qəzetin sahibi və razılaşmalarına görə baş redaktor da Səbahəddin Əli olurdu. Əziz Nesin qəzetin ilk sayında (25 noyabr 1946) başına gələcəkləri gözə alaraq, yaxınları ilə halallaşırdı: "Marko paşa" adında bir qəzet çıxacaqmış. Bir felyeton yazmağımı istədilər bu qəzetə. Öncə Allaha, sonra mətbuat qanununa sığınıb yazacağam. Bilmək olmaz nə olar, nə olmaz... İçki şüşədə, qələm cibdə durduğu kimi durmaz! Dostlar, qonşular, evim əhli! Halal edin haqqınızı, mətbuat qanununa güvənərək yazı yazmağa gedirəm" [1, s.85].

Qəzetin ilk üç sayındakı sərt xarakterli çıxışlara görə Səbəhəddin Əli, Əziz Nesin, jurnalın karikaturisti Mustafa Uykusuz (Mim Uykusuz) həbs edilirlər. Əziz Nesin 1947-ci ildə "Marko paşa"nın 6 yanvar sayında dərc etdiyi "Məcburi istirahət" adlı felyetonunda qəzetin 4-cü sayı çapda olarkən həbs olunması və 17 günlük fiziki işgəncə görərək təcridxanada saxlanıldığı vaxt çəkdiyi

mənəvi işgəncələrdən bəhs edir. "Hər zaman qəzet bağlanılmır ki, bəzən də belə qəzetçi bağlanılır....Pəncərəmin şüşəsi soyuqkən və siqaretimin dumanından buğlandıqca şüşəyə neçə dəfə vəsiyyətimi yazmışam. Çünki kağız qələm vermirdilər"[1, s. 86]. Bu felyetonu ədibin ilk hekayələr kitabı olan "Geriyə qalan"ın ikinci nəşrində (1974) təkrar işıq üzü görmüşdür.

Hərbi rejim tərəfindən hər dəfə qəzet bağlandıqca ad dəyişdirməli olduqlarından 1946-1950-ci illər arasında "Marko paşa" 7 müxtəlif adla fəaliyyət göstərmişdir: "Mərhum Paşa", "Məlum Paşa", "Əlibaba", "Yeddi səkkiz Həsən Paşa", "Bizim Paşa" və "Mədət". Artıq yuxarıda da qeyd etdiyimiz kimi "Marko paşa" Türkiyədə ilk siyasi satira jurnalı idi. Eyni zamanda siyasi polis tərəfindən qadağalara, əngəllərə rəğmən ən çox satılan (70 min tirajla satışı olmuş!) mətbu orqan idi. "Marko paşa" türk satirasının inkişaf tarixində mühüm oynamış satirik qəzet olmuşdur. "1945-1950 illər arası mizah (satira) baxımından inkişaf dövrü olmuş, gənc cümhuriyyətin satira kadrları məhz bu dövrdən etibarən yetişməyə başlamışdır" [13, s.8]. "Marko paşa" kollektivinə 1948-ci ildə Rüfət Ilqaz da qoşulmuş, bu çətin və həbslərlə keçən məşəqqətli mübarizələrinə şərik olmuşdu. Rüfət Ilqaz da Əziz Nesin kimi "Marko paşa" məktəbində satirik qələmini püxtələşdirmiş türk satirik ədəbiyyatına töhfələr vermişdir.

Əziz Nesin 1946-cı ildən başlayaraq ardı-arası kəsilməyən həbs cəzaları, sürgün cəzası almışdır. Kommunist müəllif kimi tanınmışdı. Buna görə də heç bir mətbu orqan onu işə götürmür, yazılarını nəşr etməyə cürət göstərmir, kitabını çap etməyə mətbəələr razılıq vermirdi. 1953-cü ildə Əziz Nesin "Marko paşa" və onun davamı kimi çıxan jurnallarda çap olunmuş yazılarından 14 hekayə seçir və 48 səhifə həcmində kitab tərtib edir. Əlbəttə ki, heç bir nəşriyyat çapını öhdəsinə götürmədiyi üçün bir mətbəə ilə razılaşaraq özü çap edir və adını da "Geriyə qalan" qoyur. Özünün də qeyd etdiyi kimi: "Çünki səkkiz illik məşəqqətli qəzetçilik fəaliyyətimdən, zamanın iqtidarlarıyla olan o amansız savaşdan sonunda qala-qala 14 hekayə qalmışdı" [12, s.5].

Əziz Nesin yaradıcılığının ilk satira nümunələri olduğu üçün "Marko paşa"dakı yazıları haqqında 1990-cı ildə qələminin ən yüksək sənətkarlıq zirvəsində olarkən qeyd edirdi ki, "ədəbi dəyəri olan satirik hekayələrdən daha çox o dövrün (1946-50) sosial və daha çox siyasi savaşının məhsulları olan sənədlər kimi qəbul edilməlidir" [1, s.17].

Əziz Nesinə görə, gülüş vasitə, düşünmək isə əsas məqsəddir. Əylənərək, gülərək düşünən xalq naqisliklərini, çatışmazlıqları görüb düzəltməyə çalışmalı, daha gözəl cəmiyyətdə və mühitdə yaşamalı, inkişaf etməlidir. Bu məqsədi uğrunda 50 il qələm çalan satirik ustad həcvlər, satirik hekayələr, romanlar, komediyalar yazaraq hərtərəfli təsir sahəsi yaratmışdır. Eyni zamanda cizgi roman, radiofonik təmsillər, nağıllar da yazmış, satirik qələmini ədəbi növlərin bütün janrlarına sınamışdır. Əziz Nesin Türkiyədə ilk cizgi roman hazırlamış sənətkardır. Əziz Nesin operativliyinə görə satirik hekayələri, qafiyəli olduğu üçün daha asan yadda qalması və satirik gülüşünün kəskinliyini itirməməsinə görə isə həcvlərə üstünlük vermişdir. Tahir Alanqunun da qeyd etdiyi kimi "1918-1935-ci illər arasını əhatə edən Qərb təsirindəki salon satirasının qurduğu modanı yıxmış, fərqli izah və forma metodlarını sınaqdan keçirdərək satirik hekayə ənənəsinin həm mirasçısı, həm də uğurlu novatoru olmuşdur" [3, s.343]. Burdan da aydın olur ki, Əziz Nesin türk satirik ədəbiyyatında yeni bir mərhələ yaratmışdır. "Marko paşa" ənənəsi ilə davam edən siyasi satira, zəngin bədii irsinin davamı kimi inkişaf edən türk satirik ədəbiyyatı bütövlükdə dünya ədəbi təcrübəsində Əziz Nesin imzasını bədii gülüş ustası kimi təsdiqləyir.

**Ədəbiyyat**

1. Ali, S. Markopaşa yazıları ve ötekiler. – İstanbul: Yapı Kredi, 2022, 226 s.
2. Anaç, D. Marko paşa Pitsipios. – İstanbul: Türk Kızılay, 2019, 254 s.
3. Aydın, A.A. Türkiyə ədəbiyyatı tarixi. – Bakı: Bakı Universiteti nəşriyyatı, 2007, 280 s.

4. Cantek, L. Şehre göçen eşek. Popüler kültür, mizah ve tarih. – İstanbul: İletişim yayınları. 2018, 339 s.
5. Gerçek. 25 Temmuz, Perşembe, 1946, 19. Sayı.
6. Kabacalı, A. Çeşitli yönleriyle Neyzen Tevfiq. – İstanbul: Özgür, 2003, 383 s.
7. Korkmaz, D. Markopaşa 1946-1950. – Ankara: Gazeteciler cemiyeti, 2021, 224 s.
8. Nesin, A. Cumhuriyet dönemi türk mizahı. – İstanbul: Adam, 2001, 736 s.
9. Nesin, A. Geriye kalan. – İstanbul: Nesin, 2022, 128 s.
10. Nesin, A. Gömüyü arayan adam (Fotoğraflarla Aziz Nesinin yaşamöykүsü) – İstanbul: Nesin, 2019, 174 s.
11. Nesin, A. İnsanlar konusa konusa. – İstanbul: Nesin, 2018, 280 s.
12. Topuz, H. 100 soruda türk basın tarihi. – İstanbul: Gerçek, 1996, 232 s.
13. Yardımcı, İ. Mizah Kavramı ve Sanattaki Yeri. Uşak Üniversitesi Sosyal Bilimler Dergisi, 3(2), 2010, s.1-41. https://doi.org/10.12780/UUSBD69.